*"Ermənistan" adlanan ərazidə yaşamış azərbaycanlılara qarşı erməni daşnakları tərəfindən zaman-zaman vurulan ağır zərbələr, insanların analoqu olmayan qırğınlarla üzləşməsi Vedidən də yan keçməmişdi.*

Tarixən qədim türk torpağı olan bu mahalın ərazilərində "Daşnaksütyun" partiyasının fəaliyyəti ilə müxtəlif ölkələrdən ermənilərin gətirilib yerləşdirilməsi hayların mənfur planlarının reallaşmasına imkan yaratmışdır. Bu haqda Vedinin yaşlı nəslinin nümayəndələrindən qəlbgöynədən söhbətlər eşitmişəm.

# Vedinin həsrətini çəkirik...



1918-1920-ci illərdə Qərbi Azərbaycanın Vedi bölgəsində daşnakların törətdikləri soyqırımı soydaşlarımızı daha dəhşətli faciələrlə üz-üzə qoydu.

Bu rayon 1930-cu il sentyabrın 9-da yaradılıb. 1964-1968-ci illərdə ləğv edilib və ərazisi Qəmərli (Artaşat) rayonuna birləşdirilib. 1968-ci ildə yenidən Ararat adı ilə bərpa olunub. Rayon mərkəzi, şəhər tipli Vedi qəsəbəsi olub. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 49 kilometr olub. Vediyə ən yaxın dəmiryol dayanacağı 7 kilometr kənarda yerləşən Şirazlı stansiyası idi.

Rayon Qərbdən Türkiyə ilə (Araz çayı vasitəsilə), cənub-şərqdən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə, habelə Ermənistanın Yeğeqnadzor (Keşişkənd, Mikoyan), cənub-şərqdən Martuni (keçmiş Aşağı Qaranlıq), şərqdən Kotayk (Abovyan), şimal-qərbdən isə Artaşat rayonları ilə həmsərhəd olub. Ağrı vadisinin bir hissəsini təşkil edir.

Vedibasar rayonunun mərkəzi olan Böyük Vedi İrəvan şəhərindən 48 kilometrlik məsafədə yerləşir. Tarixən bu ərazilərdə türklər (azərbaycanlılar, haylar və yezidi kürdlər) yaşayırdı. Şəhərin bünövrəsi 1922-ci ilin əvvəllərində Abbasqulu bəy Şadlinskinin təşəbbüsü ilə Dəvəli kəndi yaxınlığındakı kirəc mədəninin inşasına görə qoyulmuşdur. Bir müddət sonra onun təşəbbüsü ilə Vedi çayından tikinti sahəsini su ilə təchiz etmək üçün içməli və texniki su arxı da çəkilmişdir.

Böyük Vedidə ilk rus-tatar məktəbinin açılışına nail olunmuş və azərbaycanlı uşaqlar burada təhsil almışlar. Bu əraziyə 1831-ci ildə İrandan ermənilər gətirilib yerləşdirilmişdi.

Vedidə türklərin sayının azaldılmasında 1905-1906, 1918-1920-ci illərdə baş vermiş erməni-türk münaqişələri, 20-30-cu illərdə baş vermiş repressiyalar, 1948-1953-cü illərdə həyata keçirilən deportasiya siyasəti təsir etmişdir.

Münbit torpağa və Ermənistan üçün mühüm strateji əhəmiyyətə malik olduğu üçün Vedi (Ararat) rayonu dəfələrlə ermənilərin (hayların) çirkin niyyətlərinin hədəfi olmuş, tez-tez ərazi-inzibati dəyişikliklərinə məruz qalmışdır. 1936-cı ildə rayon iki yerə bölünərək yeni Qarabağlar rayonu yaradılmışdır.

Ancaq rayon 1948-ci ildə ləğv edilmiş və yenidən Vedi (Ararat) rayonu ilə birləşdirilmişdi. Vedidə erməni millətçiləri azərbaycanlıların başına nə oyunlar açmırdılar? Soydaşlarımıza qarşı təzyiqlər keşişlər və antitürk qüvvələr tərəfindən həyata keçirilirdi. Azərbaycanlı gənclərin müxtəlif vəzifələrə yerləşdirilməsinə ögey münasibət bəslənilir, onlara normal həyat şəraiti yaradılmırdı. Şübhəsiz ki, bu da azərbaycanlılar tərəfindən nifrətlə qarşılanırdı.

1948-1953-cü illərdə rayonun, demək olar ki, bütün kəndləri zorla, "könüllülük" prinsipi əsasında Azərbaycan SSR-ə, xüsusilə aran rayonlarına köçürüldü. İqlim şəraitinə uyğunlaşa bilməyən əhalinin bir hissəsi müxtəlif xəstəliklərdən vəfat etdi. İosif Stalinin ölümündən sonra vedililərin bir hissəsi yenidən doğma yurdlarına qayıtdılar. Ermənistan SSR-in ozamankı maskalanıb bolşevik olmuş daşnak hökuməti gələnləri dağlıq ərazilərdə olan kəndlərdə yerləşdirdilər və onlara ögey münasibət göstərildi.

Son iki əsrdə Qərbi Azərbaycanda türklərə qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində vedililər indi Ermənistan adlanan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin düşmüş, kütləvi qətl və qırğınlara məruz qalmış, ən nəhayət, 1988-ci ildə Mixail Qorbaçov və digər ermənipərəst qüvvələrin xəyanəti ucbatından doğma yurdlarından qovulmuşlar.



Artıq 37 ildir ki, türklərin qədim yaşayış məskəni olan Vedidən soydaşlarımız ayrı düşmüşlər. Deportasiya çox acı nəticələr verdi. Vedinin daşnaklar tərəfindən işğal olunması mənim də qəlbimi didib-parçalayır. Mən də Vedidə, qədim Oğuz elində dünyaya gəlmişəm, Gülaysor kəndindənəm. Artıq neçə illərdir ki, Vedinin həsrətini çəkə-çəkə Salyanın Marışlı kəndində yaşayıram.

Prezident cənab İlham Əliyev 24 dekabr 2022-ci il tarixdə Qərbi Azərbaycan İcmasının inzibati binasına gələrək xalqımızın və Azərbaycan dövlətinin sonrakı dövr üçün əsas hədəfini - Qərbi Azərbaycana Qayıdış ideyasını irəli sürdü və bu qayıdışın yol xəritəsini cızdı. Bu yol ulu öndər Heydər Əliyevin bizə vəsiyyəti, Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığıdır.

Qərbi azərbaycanlıların hüquqlarının bərpası sülh yolu ilə həll edilməli, köç karvanları geri dönməlidir. Bu zamanın və Qərbi azərbaycanlıların tələbidir.

**Bəylər ABBASOV,**
**Salyan rayonu, həkim.**